*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 92–100
https://doi.org/10.48445/p7221-2866-9112-o

# Bədii ədəbiyyatda müstəqillik dövrünün irəli sürdüyü mövzu və ideyalar

***Günel Hümmətova (Pəniyeva)*** [1]

**XÜLASƏ**
*Müstəqillik əldə edildikdən sonra Azərbaycan ədəbiyyatında yaranan durğunluq qısa müddət ərzində aradan qaldırıldı. Baş vermiş ictimai-siyasi hadisələrin yaratdığı ruh yüksəkliyi, müstəqillik duyğusu ədəbi nümunələrin hər bir sətrində özünü göstərməyə başladı. Qələmi ilə hisslərini vərəqə köçürən nasirlər 20 Yanvar və Qarabağ şəhidlərinin, qaçqın və məcburi köçkün damğası alıb öz yurdunda vətənsiz qalan sakinlərin daxili hiss-həyəcanlarını, başlarına gələn fəlakətlərin bədii təsvirini yaratmağa çalışdılar. Tədqiqatın aktuallığı məhz müasir dövrdə qələmə alınan bəzi əsərlərin xronoloji təsvirini verməkdir. Burada əsas məqsəd müstəqilliyimizi ifadə edən ədəbi nümunələrin bir qisminin təhlilinə nail olmaqdır. Məqalədə müqayisəli metoddan istifadə edilərək müstəqillik dövrü ədəbiyyatının təhlili aparılmışdır. Məqalənin elmi yeniliyinə gəldikdə isə onu qeyd etmək olar ki, 30 illik bir dövrü əhatə edən nisgilli Azərbaycan ədəbiyyatı 2020-ci ildən etibarən zəfər motivlərini əks etdirməyə başladı. Məqalədən əldə edilən nəticə isə bu geniş tarixi dövr ərzində yaradılmış əsərlərin hər birində ifadə olunan peşmanlıq hissinin nümunələr əsasında müəyyənləşdirilməsidir. Məqalənin praktiki əhəmiyyəti müstəqilliyi özündə ehtiva edən bədi nümunələr üzərində tədqiqat işinin aparılmasıdır.*

**AÇAR SÖZLƏR**
*bədii ədəbiyyat, müstəqillik dövrü, bədii boyalar*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 23.02.2025
Qəbul edilib: 14.04.2025

[1] Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0000-0002-8916-3484 | gunelpeniyeva@mail.ru


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 92–100
https://doi.org/10.48445/p7221-2866-9112-o

# The Theme and Idea Put Forward by the Period of Independence in Fiction

***Gunel Hummatova (Paniyeva)*** [1]

**ABSTRACT**
*After gaining independence, the stagnation that arose in Azerbaijani literature began to recover in a very short time. The high spirits and sense of independence created by the socio-political events that took place began to manifest themselves in every line of literary examples. The poets, who poured their feelings into the paper with their pens, began to create artistic descriptions of the inner feelings and emotions of the Garabagh residents who were left stateless in their homeland, from the martyrs of January 20, to the martyrs of Garabagh, who were branded as refugees and displaced persons, and who were left stateless in their homeland. The relevance of the research is to provide a chronological description of some of the works that have been published in the modern era. The main goal is to achieve an analysis of some of the literary examples that express our independence. The article was analyzed using the comparative method. As for the scientific novelty of the article, we can note that the comparative literature covering a 30-year period expresses the reflection of its victory since 2020. The conclusion we have drawn from the article is that the regret expressed in each of the works created during this broad historical period was analyzed based on certain examples. The practical significance of the article is the creation of a research work that embodies independence.*

**KEYWORDS**
*artistic literature, period of independence, artistic paints*

**ARTICLE HISTORY**
Received: 23.02.2025
Accepted: 14.04.2025

---

[1] Doctor of Philosophy in Philology, Head Teacher, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0000-0002-8916-3484 | gunelpeniyeva@mail.ru

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

### Mövzunun aktuallığı

XX əsrin 90-cı illərində Azərbaycan dövlətinin müstəqillik qazanması bu müstəqilliyin əldə edilməsi üçün canlarından keçən şəhidlərin acı taleyi, baş verən tarixi hadisələr həmin dövr ədəbiyyatında silinməz izlər qoydu. 1990-cı il 20 Yanvar hadisəsi, ardınca baş verən I Qarabağ müharibəsi, itirdiyimiz torpaq yanğısı, faciəyə çevrilən Xocalı soyqırımı, öz doğma torpaqlarından didərgin salınan insanların nisgilli taleləri Azərbaycan ədəbiyyatının hər janrına öz təsirini göstərdi. Nəsr, nəzm, dramaturgiya, musiqi – hər sahədə 20 Yanvar, Qarabağ, Xocalı faciələrinin bədii boyalarla təsviri ədəbiyyatın qarşıya qoyduğu əsas mövzu dairəsi idi. *"Müstəqillik dövrünün Azərbaycan ədəbiyyatı müstəqil dövlət quran xalqın ədəbiyyatıdır və bütün dəyərləri, keşməkeşli həyat yolu, mübarizə və uğurları ilə bu həqiqətləri əks etdirir. Müstəqillik illəri ədəbiyyatının formalaşmasında bir sıra ictimai-siyasi və tarixi-mədəni faktorların mühüm rolu qeyd olunmalıdır. Bu baxımdan ilk növbədə ictimai-siyasi müstəqilliyin qazanılması ilə ədəbiyyatımızın sovet dövründən əvvəl mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dəyərlərinə qayıdışı əlamətdar olmuşdur"* (Həbibbəyli, 2016, s. 4).

XX əsrin ortalarında nəsrə yeni nəfəsin gəlməsi və "yeni nəsr" anlayışının yaranması ilə müəyyən ədəbi çərçivə daxilində formalaşan Azərbaycan ədəbiyyatı öz yerini müstəqillik dövrünü əhatə edən nisgilli, hüzünlü ədəbiyyata verdi. Əsas qəhrəmanlar "nəcib insanlar" deyil, hiss və həyəcanlarını çərçivəyə salaraq sətiraltı mənalarla ifadə etməyə məcbur olan yazarlar, şairlər, dramaturqlar və musiqiçilər də deyil, müstəqilliyini əldə etmiş, heç bir çərçivəyə məhkum olmayan azad torpaqların azad ədibləri idi. Müstəqillik dövrünün ədəbiyyatını isə bu azadlığı qanları bahasına əldə etməyə çalışan şəhidlərin və Qarabağ torpağını qoruyan igidlərin taleyi bürüdü. Vətənin və xalqın qanı bahasına qazanılmış müstəqilliyin mümkün mənfi fəsadlarından çəkinən ədiblər tezliklə I Qarabağ müharibəsinin başlanması ilə dərdlərinə yeni dərd, həsrətlərinə isə Qarabağ həsrətinin əlavə olunduğunu gördülər.

*"İndi müstəqil dövlət olduğumuzdan yazarlarımızın sərbəstliyi də artıb. Ancaq mənim ən böyük arzum odur ki, Azərbaycan bütöv olsun. Bu arzum "Gülüstan" poeması yazılandan bəri ürəyimdədir"* (Vahabzadə, 2007, s. 5).

Qarabağın işğalı, qaçqın və məcburi köçkünlərin qayğıları, cəmiyyətdə yaranan qarmaqarışıqlıq, hərbi-siyasi və iqtisadi çətinliklərdən doğan ümidsizlik bir çox hallarda Azərbaycan ədəbiyyatında durğunluğa, məyusluğa səbəb oldu. Yatmış insanın qəfildən sıçrayışına bənzəyən yeni oyanışda poema janrı daha ön sıralarda idi. *"Biz yaxın tarixdə çoxumuzun görmədiyi, duymadığı, hətta bəzilərinin heç hiss etmədiyi bir müharibəni yaşadıq. Halbuki müharibə haralardasa, çox yaxınlarda gedirdi. Onun dəhşətlərini isə,*

*hər zaman olduğu kimi, yalnız zərbəsini dadanlar duyurdular. Amma deyilənə görə, söz sənətinin (təxəyyüllə birlikdə götürülərsə) istənilən dəhşətin təəssüratını yaratmaq gücü var. Hər halda, indiyə qədər yaradılanlar arasında bu fikrin sübutu olan əsərlər mövcuddur",* – deyən Nərgiz Cabbarlı haqlı olaraq, o dövr Azərbaycan ədəbiyyatında ədiblərin söz demək hüququnun və azad ifadə imkanlarının olduğunu qeyd edirdi (Cabbarlı, 2016).

**Mövzunun məqsədi:**

- müstəqillik dövrü Azərbaycan ədəbiyyatı haqqında ümumi mənzərə yarada bilmək;
- bu dövr ədəbi nümunələrinin mövzu-ideya və problematikasını müəyyənləşdirmək;
- İntiqam Mehdizadənin "Qaçqın qarları" hekayəsinin təhlili əsasında hadisələrin törətdiyi insan faciələrinin bədii boyasını göstərməkdir.

*Tədqiqatın elmi yeniliyi* müstəqillik dövrü Azərbaycan ədəbiyyatında əsas mövzu olan 20 Yanvar, Qarabağ, qaçqınlıq həyatı, Xocalı soyqırımı kimi problemləri özündə əks etdirən əsərlər üzərində 1990-cı illər ədəbiyyatının ümumi mənzərəsini təsvir etməkdir.

## Metodlar

Məqalədə əsas metod kimi müqayisəli və tarixi metoddan istifadə edilmişdir. Müqayisə, əlaqələri kəşf etmək və ya fərqləri, oxşarlıqları nəzərə almaq üçün iki və ya daha çox obyekti müşahidə etməkdir. Müstəqillik dövrünün əsas ideyası həmin dövrdə deyilmiş fikir və mülahizələrin müqayisəsi əsasında müəyyənləşdirilmişdir.

Tarixi metod, tədqiq olunan mövzunun mənşəyinə və təkamülünə diqqət yetirir, zaman və mərhələ xronologiyasında onu dəqiqləşdirilir. İ. Mehdizadənin hekayəsinin ideya xüsusiyyəti tarixi faktlara söykənərək 20 Yanvar, Qarabağ, Xocalı hadisələrinin tarixi və təkamül proseslərinin müəyyənləşməsi əsasında araşdırılmışdır.

## Nəticələr

Məqalədən əldə olunan ümumi nəticələrə əsasən:

- bədii poeziya və nəsrin durğunluq dövründən sonra müstəqillik, Azərbaycançılıq ideologiyasının təsiri ilə dirçəlməsi;
- hadisələrin bədii təsvirində poeziyanın aparıcı rolu;
- müharibə və müstəqilliyin əldə edilməsindən sonra insan həyatında baş verən faciələrin real hadisələr əsasında bədii təsviri.

## Müzakirə

H. Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə müstəqil dövrünü yaşayan Azərbaycan ədəbiyyatının inkişafında böyük irəliləyişlər baş verdi. Ulu öndərin güclü siyasəti nəticəsində: *"Azərbaycan və Azərbaycançılıq anlayışları qədim tarixə malik olsalar da, uzun əsrlər boyu yalnız coğrafi yer adı kimi işlədilmiş, son yüzillikdən bir qədər artıq dövrdə, həm də milli ideya olaraq formalaşmışdır. Azərbaycançılığın dövlət siyasətində milli ideologiyaya çevrilməsi, müstəqil dövlət quruculuğu ilə əlaqələndirilməsi ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövləti və xalqımız qarşısındakı böyük tarixi xidmətlərindən biridir"* (Həbibbəyli, 2023, s. 24). Baş vermiş hadisələr, itkilər və müstəqillik uğrunda mübarizənin reallıqları Azərbaycan ədəbiyyatına təsir edərək yeni mövzuların formalaşmasına şərait yaratdı. Bu dövr ədəbi nümunələrdə milli ruh, vətəndaşlıq mövqeyi, həyəcan, çağırış, birlik və vətənpərvərlik duyğusu qüvvətlənərək fəryada çevrildi. İstər dövlət siyasəti, istərsə də mədəniyyət və ədəbiyyat öz mövzusunu bu istiqamət üzrə planlaşdırdı.

XX əsrin 90-cı illər dövrü Azərbaycan ədəbiyyatı tarixi salnaməsinə yeni motivlər, fərqli obrazlar, təsirli səhifələr əlavə etməyə başladı. *"Müstəqillik ədəbiyyatının modern estetikaya güvənməsi demokratiya və fərdi insan azadlığı prinsiplərinə sədaqətindən irəli gəlir. Bununla belə, ümumbəşəri dəyərlərin üstünlüyü heç də milli mental dəyərləri inkar etmir, əksinə, sintez zərurətini əsaslandırır. Odur ki ulu öndər ədiblərə əsərlərində prioritet olaraq Azərbaycanın problemlərinə toxunmağı tövsiyə edir, xüsusən Qarabağ müharibəsi mövzusuna həssas yanaşmalarını arzulayırdı. Milli mədəniyyətlərin dünyaya inteqrasiya olunduğu qlobalizə əsrində ədəbiyyat və sənət qabaqcıl Qərb və dünya dəyərlərindən bəhrələndiyi kimi, qədim tarixi köklərə malik Azərbaycanın zəngin mədəni irsini də dünyaya çıxarmağı, təbliğ etməyi bacarmalıdır. Ulu öndər Heydər Əliyevin istər Azərbaycan yazıçılarının qurultayında yazıçılara tövsiyələri, istərsə də imzaladığı mədəniyyət sahəsində fəaliyyət proqramını şərtləndirən sənəd və sərəncamlar ədəbiyyat qarşısında duran perspektivlərə ayna saldı, Azərbaycançılıq ideologiyasına önəm verməklə, plüralist seçimə əsaslanan, tam azad müstəqillik epoxası ədəbiyyatının yaradıcılıq üfüqlərini müəyyən etdi"* (Həbibbəyli, 2016).

Bütün bu ictimai-siyasi faktlar poeziyada daha çox ifadə edilməyə başladı. *"Qarabağ müharibəsi ilə yanaşı, müstəqilliyimizin ilk illərində xalqımızın üzləşdiyi faciələr, 20 Yanvar qırğını poemaların əsas mövzusu olur. Həmin poemalara B. Vahabzadənin "Şəhidlər" və M. Aslanın "Ağla, qərənfil, ağla" əsərlərini misal gətirə bilərik"* (Qasımlı, 2016, s. 34).

G. Qasımlının da qeyd etdiyi kimi, bu dərdlərin bədii ifadəsinin əksi B. Vahabzadənin "Şəhidlər" poeması, Xəlil Rza Ulutürkün "Davam edir 37" şeiri, Məmməd Aslanın "Ağla, qərənfil, ağla", Məmməd Arazın, Sabir Rüstəmxanlının, Zəlimxan Yaqubun və başqalarının şeirlərində böyük ustalıqla təsvir edilmişdir. Hər bir poeziya nümunəsində milli istiqlal marşının sədasını, "milli azadlığa köklənmiş xalqımızın hələ ayaqda olan sovet sovet imperiyasına etirazı"nı, imperiya mifini dağıdan düşüncələri, 20 Yanvar faciəsindən doğan ümummilli kədərin bədii ifadəsini, kəsərli fikirlərin bədii boyalarla təsvirini görürük. Bütün bu ideya-məna yükü isə Azərbaycan ədəbiyyatında müstəqil dövlətçilik ideyasının dərinləşməsinə və xalqı mübarizliyə, birliyə səsləməsinə şərait yaradırdı. *"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı aşağıda qeyd olunan iki mərhələdə inkişaf etmişdir:*

1. *Müstəqillik axtarışları və yeni epoxa ədəbiyyatının formalaşması.*
2. *Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının inkişaf edib möhkəmlənməsi"* (Həbibbəyli, 2018).

Müstəqillik dövründə Azərbayan ədəbiyyatında nəsr əsərlərinin də əsas mövzu-problematikası müstəqillik ideyalarının güclənməsi, xalqın bir bayraq altında birləşərək mübarizə aparması istiqamətində təbliğatını təşkil edirdi. Bu yöndə yazılmış əsərlərdən Hidayətin "Qara yanvar", "Didərginlər"; Hüseynbala Mirələmovun "Yanan qar"; Nurəngiz Günün "Xocalı simfoniyası"; Anarın "Otel otağı"; Sabir Əhmədlinin "20 Yanvar hekayələri"; İsi Məlikzadənin "Məndən nigaran qalmayın"; Elçin Hüseynbəylinin "Qumru quşu", "Kəndə gün çıxanda qayıdacağıq"; Əli Səmədlinin "Gəlin gəlir"; İntiqam Mehdizadənin "Qaçqın qarları"; Sabir Rüstəmxanlının "Meydan" romanı və s. bu kimi əsərləri nümunə göstərə bilərik. Bu əsərlərin hər birində müharibə və qaçqınlıq mövzusu, partizan hərəkatının təsviri, Qarabağ və ümumilikdə ölkənin ərazi bütövlüyü uğrunda mübarizənin reallıqları, Xocalı faciəsi, bu illər ərzində torpağını, övladını itirən anaların fəryadı, müstəqillik uğrunda mübarizənin real dərki böyük ustalıqla həyat həqiqətləri motivləri əsasında təsvir edilmişdir. Müstəqillik ədəbiyyatının formalaşmasının ideya-nəzəri əsasları:

– *"Sovet dövrü ədəbiyyatında müstəqillik ideyaları, milli şüur və məfkurə yaddaşının hifz olunması;*
– *Ana dili və milli şüurun qorunması və inkişaf etdirilməsi;*
– *Milli-tarixi yaddaşın bərpası;*
– *Azərbaycan idealı, milli vətənpərvərlik ruhunun yaşadılması;*
– *Azərbaycan insanının bədii təcəssümü;*
– *Milli ideya vasitəsilə qurtuluşa çağırışın bədii ifadəsi;*
– *Ədəbiyyatımızın azadlıq missiyasına yüksək qiymət"* (Əsgərli, 2016, s. 6)

Bu əsərlərin yazılması gəncləri və xalqı mübarizəyə çağırışın poeziya vasitəsilə güclənməsinə, publisistikanın vətəndaşlıq mövqeyinin daha da güclənməsinə şərait yaradırdı. Məhz bu dövrdə Azərbaycan ədəbiyyatının dirçəlməsi və ədəbiyyatdakı rolu haqqında N. Cəfərov yazır*: "50-ci illərdən bu günə qədər Azərbaycanın ictimai-siyasi, mənəvi-ideoloji həyatında elə bir hadisə olmamışdır ki, B. Vahabzadə ya yaradıcılığı, ya da ictimai fəaliyyəti ilə ona birbaşa, yaxud dolayısıyla toxunmamış olsun. Bəxtiyarın miqyaslı, məzmunlu yaradıcılığı, milli ideallara xidmət edən ictimai fəaliyyəti, böyük düşüncə potensialı onu müasir dövrün ən böyük, nadir şəxsiyyətlərindən biri etmişdir"* (Cəfərov, 2007, s. 175).

Müstəqillik və vətən həsrəti ilə yanan qaçqın həyatını İntiqam Mehdizadə 2015-ci ildə qələmə aldığı "Qaçqın qarları" adlı hekayəsində böyük ustalıqla təsvir etmişdir. Hekayənin məzmununu qaçqınlıq həyatı yaşayan Asif adlı jurnalistin qışda soyuqdan donan, evsiz-eşiksiz qalan qaçqınların dərdlərini çəkməsi, onların halına acıması motivləri təşkil edir. Eyni zamanda müstəqillik adı altında insanların sapı özümüzdən olanlar tərəfindən vətənsiz, elsiz qalması şikayətləri ilə başlayır. Qışın qarlı günlərində qaçqınların acınacaqlı hallarını düşünən jurnalist sanki bir anlıq yaddaşını itirir, gecə qələmə aldığı "Kəlbəcər" şeirini necə yazdığını belə xatırlamır. Azadlıq uğrunda aparılan mitinqlərin baş verdiyi "Azadlıq meydanı"nı sevməsə də qaçqın üsyanı edir, lakin daha sonra cəsarət toplayaraq masasının üzərində yazılmış şeiri oxuduqda hər misrasında Kəlbəcər həsrətini və vətən yanğısını hiss edir. Asifin üsyanı zamana, dövrə deyil, bu vəziyyətdən sui istifadə edib yalnız öz mənafeyini güdənlərə qarşıdır. Sovet imperiyasını tərifləməsi isə vətənindən, Kəlbəcərindən ayrılmasına səbəb olan sapı özümüzdən olanlara qarşı ikrah hissinin bədii təsviridir. İki səhifəlik bu hekayədə saysız-hesabsız insanların dərdləri, qaçqınlıq həyatının keşməkeşli yollarının ifadəsi təsvir edilmişdir. Burada vətəndən ayrı düşüb özünü vətənsiz hiss edən Asifin timsalında yaddaşını itirən neçə-neçə qaçqınların real təsviri verilib.

Mən sənin qədrini bilə bilmədim,
Dərdli harayına gələ bilmədim,
Uğrunda vuruşub ölə bilmədim
Kəlbəcər çiçəyim, indi hardasan?
(Mehdizadə, 2015, s. 133)

Hekayədə yazıçının Arifin hiss etmədən yazdığı Kəlbəcər şeiri ürək dağlayan ifadələrin bədii təcəssümüdür. Hər misrasında vətən həsrəti hiss edilən 7 bənddən ibarət olan şeirdə böyük bir kütlənin çəkdiyi dərd, bir xalqın faciəsi tərənnüm edilir.

Yaş ötüb, saçımın qarışıb dəni,
Qırılıb ruhumun şux ötən simi.
Məni gözləyirsən, de, yenədəmi,
Kəlbəcər çiçəyim, indi hardasan?
(Mehdizadə, 2015, s. 133)

Hekayənin soyuq qış günü ilə başlaması da təsadüfi deyil, bu, insanların soyuq ömür yolunun ifadəsinin izahı kimi verilir. *"Müasir hekayələrdə qoyulan məsələlərdən biri də qəhrəman və onu əhatə edən mühit problemidir. Əsərlərdəki qəhrəmanların mühitdə rastlaşdığı müxtəlif xasiyyətli insanlarla ünsiyyəti, mənəviyyat, əqidə və düşüncələrinə, davranışlarına öz təsirini göstərir. Mühitlə qəhrəmanın qarşıdurması elə güclənir ki, birbaşa konflikt yaranır. Qəhrəman bəzən mənəvi, bəzən də fiziki cəhətdən sarsılır* (Hüseynova, 2016, s. 307). Qışın boranı, qarı olduğu kimi, qaçqınların da boranı, qarı vətənsiz olmalarıdır. Müəllif Asifin kürəyinə dəyən qartopası ilə gənclik illərində vətənsizliyin elə də hiss edə bilməməsini, qocalığında isə bu həsrəti dərk edib ağlını itirməsini, qar topunun kürəyinə dəyən soyuğun iliyinə qədər işləməsi kimi, vətənsiz yaşadığı illərdəki həsrətin iliyində toplanan qəmin ifadəsi kimi zəngin boylarla təsvir etmişdir.

## Nəticə

Ümumilikdə qeyd edə bilərik ki, bu dövr Azərbaycan ədəbiyyatının əsas mövzu və problematikası aşağıdakı kimi müəyyənləşir:

1. Xocalı faciəsi, Azərbaycanda ölkənin ərazi bütövlüyü uğrunda aparılan mübarizənin faciəli səhnələri;
2. Bu illər ərzində torpağını, övladını itirən anaların fəryadı;
3. Müstəqillik uğrunda mübarizənin real dərki;
4. Müharibə və qaçqınlıq mövzusu;
5. 20 Yanvar faciəsindən doğan ümummilli kədərin bədii ifadəsi;
6. Poeziya nümunəsində milli istiqlal marşının nidası.

**Ədəbiyyat**


1. Cabbarlı, N. (2016). *Yeni nəsil ədəbiyyatı*. Elm.
2. Cəfərov, N. (2007). *Seçilmiş əsərləri*. 5 cilddə, III c. Elm.
3. Əsgərli, Ə. (2016, 6 dekabr). *Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının ikicildliyinə xülasə*. Anl.edu.az. https://www.anl.az/down/meqale/525/2016/dekabr/517637.htm
4. Hüseynova, M. (2016). *Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı*. Elm və təhsil. I cild.
5. Həbibbəyli, İ. (2018). *Çoxmetodlu Azərbaycan ədəbiyyatı. Müstəqillik dövrü. Dövrləşmə konsepsiyası və inkişaf mərhələləri*. Anl.edu.az.
6. Həbibbəyli, İ. (2023). *Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr*.
7. Həbibbəyli, İ. (2016). *Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı*. AMEA Nizami adına Ədəbiyyat İnstitutu.
8. Qasımlı, G. (2016). Müstəqillik illərində yazılmış poemalarda Azərbaycan həqiqətləri. *International Journal of Young Researchers*, 33–37.
9. Mehdizadə, İ. (2015). Qaçqın qarları. *Azərbaycan jurnalı*, 8.
10. Vahabzadə, B. (2007, 28 oktyabr – 3 noyabr). *Türküstan qəzeti*, 39(69).